№ 03-04 (835) 28 fevral 2026-cı il ○ Qəzet 1991-ci ildən nəşr olunur ○ www.health.gov.az; ○ www.tibbqazeti.az

# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi



«Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Latviya Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş»in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı 2



Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 yanvar tarixli 9 nömrəli Qərarı ilə təsdiq edilmiş «Sığortaolunanlar üçün xəstəlik vərəqələrinin elektron sənəd formasında tərtib edilməsi qaydası haqqında təlimat»da dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI 3



Milli Məclis səhiyyə ilə bağlı bəzi qanunlara dəyişikliklər etdi 3

## «Əhalinin sağlamlığının qorunması haqqında» və «Onkoloji yardım haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikasının Qanunu*



Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq qərara alır: 2



## Leyla Əliyeva Tiranada uşaq evini və Universitet Xəstəxana Mərkəzini ziyarət edib

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Albaniyaya səfəri çərçivəsində paytaxt Tiranada fəaliyyət göstərən «Hannah və Rosafa» uşaq evini ziyarət edib.

Səh. 4

## Səhiyyə naziri Teymur Musayev: İcbari tibbi sığortanın tətbiqi güclü siyasi iradə, institusional əzm və ictimai inam tələb edir



Səh. 5




## Pediatriya üzrə beynəlxalq konqres keçirilib



Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti və Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalının birgə təşkilatçılığı ilə «Pediatriyada elmi irs və innovasiyalar: Hibrid dünyada uşaq olmaq» adlı beynəlxalq konqres keçirilib. 6



# «Əhalinin sağlamlığının qorunması haqqında» və «Onkoloji yardım haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikasının Qanunu*

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 497 (Cild I); 2024, № 6 (I kitab), maddələr 631, 639, № 12 (II kitab), maddələr 1332, 1350; 2025, № 1, maddə 16, № 4 (I kitab), maddə 322, № 7, maddə 608; Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 327-VIIQD nömrəli Qanunu) 10-cu maddəsinin doqquzuncu hissəsinə «isə» sözündən sonra «ixtisaslaşdırılmış dövlət tibb müəssisələrində» sözləri əlavə edilsin.

**Maddə 2.** «Onkoloji yardım haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 656 (Cild I); 2024, № 6 (I kitab), maddə 631) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.4-cü maddəyə «isə» sözündən sonra «ixtisaslaşdırılmış dövlət tibb müəssisələrində» sözləri əlavə edilsin;

2.2. 5-ci maddə üzrə:

2.2.1. 5.0.3-cü maddəyə «müəssisələrinin,» sözündən sonra «dövlət» sözü əlavə edilsin;

2.2.2. 5.0.6-cı maddəyə «müalicə-diaqnostika» sözündən əvvəl «dövlət tibb müəssisələrində» sözləri əlavə edilsin;

2.3. 6-cı maddə üzrə:

2.3.1. 6.3-cü maddədə «müalicə-diaqnostika yardımı» sözləri «onkoloji yardım» sözləri ilə əvəz edilsin və həmin maddəyə «müəssisələrdə» sözündən sonra «, habelə onların fərdi müraciəti əsasında bu Qanunun 11.1-ci maddəsində qeyd olunan özəl tibb müəssisələrində» sözləri əlavə olunsun;

2.3.2. 6.7-ci və 6.8-ci maddələrə «Onkoloji» sözündən sonra «yardım göstərən dövlət tibb müəssisələrində onkoloji» sözləri əlavə edilsin;

2.4. 8.0.5-ci maddəyə «siyahısı» sözündən əvvəl «dövlət tibb müəssisələrində müalicə olunduqda» sözləri əlavə edilsin;

2.5. 11-ci maddə üzrə:

2.5.1. adından «hüquqi və fiziki» sözləri çıxarılsın;

2.5.2. 11.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

«11.1. Onkoloji yardım ixtisaslaşdırılmış dövlət tibb müəssisələrində və «Lisenziyalar və icazələr haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq lisenziya almış özəl tibb müəssisələrində (lisenziyanın əlavəsinə uyğun olaraq) həyata keçirilir.»;

2.6. aşağıdakı məzmunda 12.1-1-ci maddə əlavə edilsin:

«12.1-1. Onkoloji xəstələrin özəl tibb müəssisələrində müayinəsi və müalicəsi «Özəl tibb fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinə uyğun olaraq həyata keçirilir.».

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 13 fevral 2026-cı il*

# «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Latviya Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş»in təsdiq edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il dekabrın 4-də Riqa şəhərində imzalanmış «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Latviya Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş» təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.




**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Latviya Respublikası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 9 fevral 2026-cı il*

# Azərbaycanda rəqəmsal inkişafın sürətləndirilməsinə dair Fəaliyyət Planı qəbul edildi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə «Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı» təsdiq edilib.**

Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsi və icrasına nəzarət Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasına həvalə olunub.

Sərəncamla təsdiq edilmiş sənəddə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinə də aid bəndlər var. Belə ki, mövcud vəziyyətin təhlili zamanı qeyd olunub ki, indiyədək təhsil, məşğulluq, nəqliyyat, sağlamlıq, əmlak, sosial təminat və digər sahələr üzrə 380-dən çox xidmət tam rəqəmsallaşdırılıb və yaxın müddətdə 80 yeni xidmətin istifadəyə verilməsi nəzərdə tutulur.

Fəaliyyət Planının prioritet istiqamətləri arasında «Rəqəmsallaşma sahəsinin inkişafı və təkmilləşdirilməsi» prioriteti üzrə dövlət informasiya ehtiyatlarında və sistemlərində toplanılan məlumatların, eləcə də Əhalinin Dövlət Reyestri, məhkəmə işləri, ünvan reyestri, daşınmaz əmlakın dövlət reyestri, vətəndaşlıq vəziyyəti aktları, elm və təhsil, əhalinin sağlamlığının qorunması və səhiyyə, sosial güzəşt və imtiyazlar, nəqliyyat vasitələri və onların xüsusiyyətləri, kommersiya qurumları və digər sahibkarlıq subyektləri üzrə məlumatların keyfiyyətinin artırılması və mərkəzləşdirilmiş data idarəçiliyinin tətbiqi nəzərdə tutulur.

Fəaliyyət Planının həyata keçirilməsi üzrə Tədbirlər Planının «Rəqəmsallaşma sahəsinin inkişafı və təkmilləşdirilməsi» bölməsi üzrə «Dövlət informasiya ehtiyatlarında və sistemlərində toplanılan məlumatların keyfiyyətinin artırılması və mərkəzləşdirilmiş data idarəçiliyinin tətbiqi» bəndinin əsas icraçısı Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Səhiyyə Nazirliyi isə digər icraçılardan biridir. Bu bəndin «Əhalinin sağlamlığının qorunması və səhiyyə üzrə məlumatlar» yarımbəndinin icrası Səhiyyə Nazirliyinə tapşırılıb. Bu yarımbəndin digər icraçısı Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyidir.



## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 yanvar tarixli 9 nömrəli Qərarı ilə təsdiq edilmiş «Sığortaolunanlar üçün xəstəlik vərəqələrinin elektron sənəd formasında tərtib edilməsi qaydası haqqında təlimat»da dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI*



Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 yanvar tarixli 9 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 4, maddə 452) ilə təsdiq edilmiş «Sığortaolunanlar üçün xəstəlik vərəqələrinin elektron sənəd formasında tərtib edilməsi qaydası haqqında təlimat»a aşağıdakı məzmunda 17-1-ci hissə əlavə edilsin:

«17-1. Sığortaolunanın xəsarət nəticəsində əmək qabiliyyətini müvəqqəti itirməsi ilə bağlı tibb müəssisəsi tərəfindən hüquq mühafizə orqanına məlumat verildiyi hallarda, bu barədə xəstəlik vərəqəsində müvafiq qeyd aparılır.».

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**
*Bakı şəhəri,*
*30 yanvar 2026-cı il*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş «İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi»ndə dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI*

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2025-ci il 24 oktyabr tarixli 276-VIIQD nömrəli Qanununun tətbiqi və «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və «Tibbi sığorta haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 7 noyabr tarixli 523 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 63 (Cild I); 2024, № 3, maddə 358, № 9, maddə 1106; 2025, № 4 (II kitab), maddə 421, № 9, maddə 858; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 21 yanvar tarixli 22 nömrəli Qərarı) ilə təsdiq edilmiş «İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi»nə aşağıdakı məzmunda 12-ci hissə əlavə edilsin:

«12. Həbs edilmiş şəxslərə, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə (məntəqə tipli cəzaçəkmə müəssisələri istisna olmaqla) tibbi xidmətlərin göstərilməsi şərtləri

12.1. Həbs edilmiş şəxslərə, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə (məntəqə tipli cəzaçəkmə müəssisələri istisna olmaqla) tibbi xidmətlər aşağıdakı şərtlərlə göstərilir:

12.1.1. müvafiq tibbi xidmətin Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsi tərəfindən göstərilməsi üçün zəruri tibbi avadanlıq və (və ya) müvafiq sahə üzrə işçilərinin olmaması;

12.1.2. bir büdcə ili ərzində tibbi xidmətlər göstərilən həbs edilmiş şəxslərin, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərin (məntəqə tipli cəzaçəkmə müəssisələri istisna olmaqla) 1500 nəfərdən çox olmaması;

12.1.3. bu Sənədin 12.1.2-ci yarımbəndi nəzərə alınmaqla, bir büdcə ili ərzində icbari tibbi sığorta fondunun vəsaiti hesabına həyata keçirilən sığorta ödənişlərinin 200 000 manatadək olması.

12.2. Həbs edilmiş şəxslərə, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə (məntəqə tipli cəzaçəkmə müəssisələri istisna olmaqla) tibbi xidmətlərin göstərilməsi zamanı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən təhlükəsizlik tədbirləri təmin edilir.».

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**
*Bakı şəhəri,*
*25 fevral 2026-cı il*

## Milli Məclis səhiyyə ilə bağlı bəzi qanunlara dəyişikliklər etdi

**Milli Məclisin 2026-cı ilin yaz sessiyasının ilk plenar iclasında Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov «Əhalinin sağlamlığının qorunması haqqında» və «Onkoloji yardım haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri diqqətə çatdırıb ki, hazırda müvafiq qanunvericiliyə əsasən, onkoloji xidmət yalnız onkoloji xidmət göstərilməsi üçün ixtisaslaşmış dövlət müəssisələri tərəfindən həyata keçirilir. Təklif edilən dəyişikliklərdə onkoloji xəstələrə göstərilən tibbi yardımın dövlət onkoloji tibb müəssisələri ilə yanaşı, özəl tibb müəssisələri tərəfindən də həyata keçirilməsi ehtiva olunur.

Müzakirələr zamanı parlamentin komitə sədri Hicran Hüseynova, deputatlar Razi Nurullayev, Elçin Mirzəbəyli məsələ ilə bağlı bəzi qeyd və təkliflərini bildiriblər. Komitə sədri Əhliman Əmiraslanov qaldırılan məsələlərə münasibət bildirib, sualları cavablandırıb.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub.



Milli Məclisin yaz sessiyasının növbəti plenar iclasında Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov «Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsindən danışıb. Qeyd olunub ki, elmi araşdırmalar nəticəsində asbestin insan sağlamlığı üçün ciddi təhlükə yaratdığının aşkar edildiyi nəzərə alınaraq, layihədə asbest və tərkibində asbest olan materialların mülki dövriyyədə olmasına yol verilməyən əşyaların siyahısına daxil edilməsi təklif olunur.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Həmin iclasda Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanovun təqdimatı ilə «Əhalinin sağlamlığının qorunması haqqında» və «Onkoloji yardım haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin yaz sessiyasındakı növbəti plenar iclasında həmin qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda da qəbul olunub.

Həmçinin «Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyası»nın təsdiq edilməsi haqqında qanun layihəsi müzakirəyə çıxarılıb. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov bu qanun layihəsi barədə məlumat verib, layihənin ölkə Prezidenti tərəfindən Milli Məclisə təqdim edildiyini nəzərə çatdırıb. «Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyası"nın 25 mart 2015-ci il tarixində Santiaqo-de-Kompostela şəhərində imzalandığını söyləyib.

Nizami Səfərov Azərbaycan Respublikasının bu Konvensiyaya xüsusi bəyanatla qoşulduğunu qeyd edib. Bəyanatda deyilir ki, Konvensiyanın müddəaları münaqişənin nəticələri tamamilə aradan qaldırılana və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlər normallaşana qədər Ermənistan Respublikasına münasibətdə tətbiq edilməyəcək.

***(Davamı 4-cü səhifədə)***

# Leyla Əliyeva Tiranada uşaq evini və Universitet Xəstəxana Mərkəzini ziyarət edib

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Albaniyaya səfəri çərçivəsində paytaxt Tiranada fəaliyyət göstərən «Hannah və Rosafa» uşaq evini ziyarət edib.**





AZƏRTAC xəbər verir ki, uşaq evi valideyn himayəsindən məhrum olan və ya sosial təhlükə mühitində yaşayan azyaşlılar üçün nəzərdə tutulmuş dövlət müəssisəsidir.

Qeyd olunub ki, qurumun fəaliyyəti xüsusilə 0-6 yaşarası uşaqların mühafizəsi, tərbiyəsi və onlara hərtərəfli qayğının göstərilməsi istiqamətinə yönəlib.

Bildirilib ki, müəssisədə uşaqlar erkən inkişaf dövründə ehtiyac duyduqları psixoloji dəstək, tibbi xidmət və mənəvi qayğı ilə əhatə olunurlar.

Sonra Leyla Əliyeva «Mother Teresa» Universitet Xəstəxana Mərkəzi ilə tanış olub.

Diqqətə çatdırılıb ki, Mərkəz bütün Albaniyada əsas dövlət universitet xəstəxanasıdır. Burada xəstələrə ixtisaslı kadrlar tərəfindən ən qabaqcıl texnologiyalardan istifadə olunmaqla yüksəksəviyyəli tibbi xidmətlər göstərilir.

Qeyd olunub ki, ölkənin əsas onkoloji xidməti burada cəmlənərək, xəstələrə şüa, kimyaterapiya və mürəkkəb cərrahi müalicə imkanları təqdim edilir.

Mərkəzdə hər bir uşağın sağlamlığına həssaslıqla yanaşılır, onların müalicə prosesi şəfqətli yanaşma və rəngarəng mühitlə dəstəklənir.

# «Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyası» ratifikasiya olunub



**Milli Məclis «Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyası»nı ratifikasiya edib.**

AZƏRTAC xəbər verir ki, 2015-ci il martın 25-də Santiaqo-de-Kompostela şəhərində imzalanmış «Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyası» Azərbaycan Respublikasının müvafiq bəyanatı ilə təsdiq edilib.

Konvensiyanın məqsədi insan orqanlarının alverinin qarşısının alınması və onunla mübarizə aparılması, habelə qurbanların hüquqlarının müdafiəsi və tərəflər arasında milli və beynəlxalq əməkdaşlığın gücləndirilməsidir.

# Azərbaycan və İndoneziya arasında səhiyyə sahəsində əməkdaşlıq müzakirə olunub

**Səhiyyə naziri Teymur Musayev İndoneziyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Berlian Helmini ilə görüşüb.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə Azərbaycan və İndoneziya arasında ikitərəfli münasibətlərin inkişafı kontekstində səhiyyə sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub.

Səhiyyə naziri Teymur Musayev qeyd edib ki, Azərbaycan ilə İndoneziya arasında mövcud dostluq və tərəfdaşlıq münasibətləri müxtəlif istiqamətlərdə, o cümlədən səhiyyə sahəsində uğurla inkişaf edir. Görüşdə Prezident İlham Əliyevin İndoneziya Prezidenti ilə Davos və Şərm əş-Şeyx şəhərlərindəki görüşləri xatırladılıb və həmin təmasların ikitərəfli əlaqələrin möhkəmlənməsinə mühüm töhfə verdiyi qeyd edilib.

Ölkəmizdə səhiyyə sisteminin modernləşdirilməsi sahəsində həyata keçirilən islahatlar, yeni tibb müəssisələrinin inşası və yüksəktexnologiyalı tibbi xidmətlərin tətbiqi barədə məlumat verilib.

İndoneziya səfiri ölkələrimiz arasındakı dostluq və qardaşlıq münasibətlərinin yüksək səviyyəsini qeyd edərək, səhiyyə sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsi üçün səylər göstərəcəyini bildirib. O, İndoneziyanın əhali sağlamlığının qorunması təcrübələrini Azərbaycan tərəfi ilə bölüşməyə hazır olduğunu qeyd edib.

Görüşdə səhiyyə sahəsində əməkdaşlığın genişləndirilməsi perspektivləri və qarşılıqlı maraq doğuran təşəbbüslərin dəstəklənməsi ətrafında fikir mübadiləsi aparılıb. Tərəflər tibb təhsili, səhiyyə sisteminin idarəolunması, ictimai səhiyyə, əczaçılıq sənayesi, tibbi texnologiyalar və təcrübə mübadiləsi sahələrində birgə layihələrin həyata keçirilməsinin mümkünlüyünü müzakirə ediblər.

# Milli Məclis səhiyyə ilə bağlı bəzi qanunlara dəyişikliklər etdi

*(Əvvəli 3-cü səhifədə)*

Bildirilib ki, 33 maddədən ibarət olan Konvensiyanın məqsədi insan orqanlarının alverinin qarşısının alınması və onunla mübarizə aparılması, bu sahədə müəyyən əməllərin kriminallaşdırılmasının təmin edilməsi, habelə qurbanların hüquqlarının müdafiəsi, tərəflər arasında milli və beynəlxalq əməkdaşlığın gücləndirilməsidir. Konvensiyada insan orqanlarının qanunsuz götürülməsi və bu cür orqanlardan istifadənin qarşısının alınması, habelə qanunsuz götürülmüş orqanların saxlanması, daşınması, ötürülməsi, idxalı və ixracı kimi əməllərlə bağlı cinayət məsuliyyətinin müəyyən edilməsi nəzərdə tutulur. Konvensiyada cinayətlərin istintaqı və təqibi, qarşılıqlı hüquqi yardım və ekstradisiya məsələləri, habelə beynəlxalq əməkdaşlığın təmin edilməsi ilə bağlı müddəalar təsbit edilir. Sənəddə həmçinin zərərçəkmiş şəxslərin hüquqlarının qorunması, onların fiziki, psixoloji və sosial bərpasına yardım göstərilməsi ilə bağlı müddəalar əks olunur.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov məsələnin siyasi əhəmiyyətindən danışıb, Azərbaycanın öz öhdəliklərinə sadiq olduğunu, milli maraqlarımıza uyğun olan konvensiyaları qəbul etdiyini bildirib. O, rəhbərlik etdiyi komitənin sənəd barədə müsbət rəy verdiyinin diqqətə çatdırıb.

Müzakirələr zamanı komitə sədrləri Siyavuş Novruzov və Hicran Hüseynova məsələ ilə bağlı fikirlərini açıqladıqdan sonra qanun layihəsi səsə qoyulub və «Normativ hüquqi aktlar haqqında» Konstitusiya Qanununun tələbinə uyğun olaraq bir oxunuşda qəbul edilib.

Parlamentin növbəti plenar iclasında «Tibbi sığorta haqqında» Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov məlumat verib. Komitə sədri bildirib ki, layihədə İcbari Tibbi Sığortada müştərək maliyyələşmənin tətbiqinin daha bir il təxirə salınması təklif olunub. Qüvvədə olan qanunvericiliyə əsasən, maliyyələşmə məbləği 2026-cı il yanvarın birindən ödənilməyə başlanmalı idi. Qanunda nəzərdə tutulan dəyişiklikdə bu tarixin 1 yanvar 2027-ci ilə qədər uzadılması nəzərdə tutulur.

Deputat Müşfiq Məmmədlinin məsələ haqqında fikirləri dinlənildikdən sonra layihə səsə qoyularaq qəbul edilib.

# Səhiyyə Nazirliyinin rəhbərliyi Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad edib

**Müasir tariximizin ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımının 34-cü ildönümü günündə Səhiyyə Nazirliyinin rəhbərliyi Xocalı soyqırımı faciəsinin qurbanlarının xatirəsinə ucaldılan «Ana harayı» abidəsini ziyarət edib.**

Nazirliyin mətbuat xidmətinin verdiyi məlumata görə, qurumun əməkdaşları abidə önünə tər gül dəstələri qoyublar, faciə qurbanlarının xatirəsini ehtiramla yad ediblər.

Azərbaycan xalqı Xocalı soyqırımını heç vaxt unutmur və unutmayacaq. Bu qanlı faciə beynəlxalq hüquq normalarına zidd olan, bəşəriyyətə və insanlığa qarşı cinayət kimi qiymətləndirilir.






# Səhiyyə naziri Teymur Musayev: İcbari tibbi sığortanın tətbiqi güclü siyasi iradə, institusional əzm və ictimai inam tələb edir

## *İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 10 illik yubileyi qeyd olunub*




**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyətə başlamasının 10 illiyi münasibətilə yubiley tədbiri təşkil olunub. Tədbirdə icbari tibbi sığorta sisteminin keçdiyi inkişaf yolu, əldə olunan əsas nəticələr və vətəndaşlara göstərilən xidmətlərin əhatə dairəsi barədə məlumat verilib.**

Agentliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə açılış nitqi ilə çıxış edən agentliyin İdarə Heyətinin sədri Zaur Əliyev 10 il ərzində icbari tibbi sığorta sisteminin mərhələli şəkildə formalaşdığını, bu müddət ərzində tibbi xidmətlərə əlçatanlığın əhəmiyyətli dərəcədə artdığını bildirib. O qeyd edib ki, 2016-cı ildə Prezident İlham Əliyevin uzaqgörən siyasəti ilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyətə başlaması bu sahədə mühüm başlanğıc nöqtəsi olub. «Dövlətimizin başçısının qətiyyətli iradəsi və Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyi ilə bu sistem formalaşıb və inam qazanıb. İcbari tibbi sığorta yalnız tibbi xidmət deyil, insanlara sabaha inam, təhlükəsizlik və arxayınlıq hissi bəxş edən bir sistemdir. Xidmətlər genişləndikcə və əlçatanlıq artdıqca vətəndaşların gözləntiləri də yüksəlir. Biz bu gözləntiləri diqqətlə dinləyir və hər dəfə bir addım daha irəli getməyə çalışırıq. Qarşıda bizi daha böyük hədəflər və daha böyük məsuliyyət gözləyir».

Səhiyyə naziri Teymur Musayev toplantıda çıxış edərək bildirib ki, icbari tibbi sığortanın tətbiqi ilə bağlı verilən qərarın icrası güclü siyasi iradə, institusional əzm və ictimai inam tələb edib: «İcbari tibbi sığortanın tətbiqinə başlanarkən vətəndaşların tibbi xidmətlərə əlçatanlığının təmin edilməsi, əhalinin səhiyyə ilə bağlı xərclərinin azaldılması əsas məqsədlər kimi müəyyən edilib. Bu gün əminliklə deyə bilərik ki, qarşıya qoyulan hədəflərə nail olunub. On il əvvəl layihə kimi başlanan icbari tibbi sığorta artıq dövlətimizin sosial siyasətinin mühüm komponentinə çevrilib. Möhkəm təməl üzərində qurulan bu sistemin gələcək illərdə də milli səhiyyə sisteminin inkişafına əhəmiyyətli töhfələr verəcəyinə inanıram».

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov çıxışında bildirib ki, icbari tibbi sığorta Azərbaycanın müstəqillik dövründə səhiyyə sahəsində həyata keçirdiyi ən uğurlu layihəsidir: «Bu gün icbari tibbi sığorta ölkəmizdə uğurla tətbiq olunur, Xidmətlər Zərfi mərhələli şəkildə genişləndirilir, əhalinin tibbi xidmətlərə əlçatanlığı və tibbi xidmətlərdən məmnunluğu artır. Düzdür, görüləcək işlər hələ çoxdur, çünki səhiyyə daim yenilənmə və inkişaf tələb edən sahədir. Lakin əminəm ki, ölkəmizdə tətbiq olunan icbari tibbi sığorta modeli gələcəkdə dünyada nümunəvi sistemlər sırasında yer alacaq».



TƏBİB-in icraçı direktoru vəzifəsini müvəqqəti icra edən Anar İsrafilov ölkə səhiyyəsinin inkişafında mühüm əhəmiyyət kəsb edən bir hadisənin - İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin yaradılmasının 10 illik yubileyi münasibətilə agentliyin rəhbərliyini və bütün kollektivini TƏBİB ailəsi adından təbrik edib. Bildirib ki, icbari tibbi sığorta sistemi sayəsində bu gün bütün bölgələrdə vətəndaşlar tibbi xidmətlərə bərabər və əlçatan çıxış imkanına malikdir.

İcbari tibbi sığorta hesabına övladı əməliyyat olunan valideyn Elvin Musayev tədbirdə çıxışı zamanı təəssüratlarını bölüşüb. O bildirib ki, övladına yüksək riskli müdaxilə tələb edən qida borusunun atreziyası diaqnozu qoyulub və əməliyyat uğurla icra olunub: «Bir valideyn olaraq çox narahat idim. Lakin icbari tibbi sığorta hesabına əməliyyat operativ şəkildə, vaxt itkisi olmadan, yerində və dəqiq həyata keçirildi. Bu gün övladımın sağlam olması bizim üçün ən böyük xoşbəxtlikdir. Yaradılan bu imkanlara görə ölkə rəhbərliyinə və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə dərin minnətdarlığımı bildirirəm. Bu dəstək bir valideyn üçün həqiqətən çox böyük anlam daşıyır».

Tədbirin sonunda İctimai Televiziyanın hazırladığı, agentliyin 10 illik fəaliyyətinə həsr olunmuş sənədli film nümayiş olunub.

# Azərbaycan və ABŞ səhiyyə sahəsində əməkdaşlığı genişləndirir

**Azərbaycanın səhiyyə naziri Teymur Musayev Amerika Birləşmiş Ştatlarının (ABŞ) Ticarət Palatasının üzvləri ilə görüş keçirib.**



Bu barədə Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumatda bildirilib ki, görüş zamanı Azərbaycan ilə ABŞ arasında səhiyyə sahəsində əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Tərəflər səhiyyə sisteminin modernləşdirilməsi, innovativ tibbi texnologiyaların tətbiqi, əczaçılıq sənayesində və tibb təhsili istiqamətində əməkdaşlıq mövzularına toxunublar.

Azərbaycan Prezidentinin rəhbərliyi altında ölkəmizdə səhiyyə sahəsində həyata keçirilən islahatlar, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi, səhiyyə sahəsinə insan kapitalının gücləndirilməsi və rəqəmsallaşdırma istiqamətində görülən işlər barədə məlumat verilib. Teymur Musayev beynəlxalq tərəfdaşlarla, o cümlədən ABŞ şirkətləri ilə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Görüşdə ABŞ Ticarət Palatasının Yaxın Şərq, Mərkəzi Asiya və Türkiyə üzrə vitse-prezidenti Cenifer Mil qurumun Azərbaycanla əməkdaşlıqda maraqlı olduğunu bildirib. O, səhiyyə və əczaçılıq sahələrində ABŞ şirkətlərinin təcrübə və texnologiyalarının paylaşılmasının mümkünlüyünü qeyd edib.

Görüşdə qarşılıqlı fikir mübadiləsi aparılıb və gələcək əməkdaşlıq imkanları müzakirə olunub.

# Səhiyyə naziri jurnalistlərə açıqlama verib



**Səhiyyə naziri Teymur Musayev mətbuat nümayəndələrinin ona ünvanladıqları bir sıra sualları cavablandırıb.**

AZƏRTAC xəbər verir ki, səhiyyə naziri jurnalistlərə açıqlamasında Səhiyyə Nazirliyinin qəzalı və əsaslı təmirə ehtiyacı olan bütün tibb müəssisələrini siyahıya alaraq investisiya layihəsinə daxil etdiyini söyləyib. Nazir bildirib ki, vəsait ayrıldıqca Səhiyyə Nazirliyi həmin müəssisələri təmir edib, aidiyyəti üzrə təhvil verir.

Jurnalistin plastik cərrahiyyə ilə bağlı sualına cavab verərkən Teymur Musayev bildirib ki, hazırda Azərbaycanda plastik və estetik əməliyyatları həyata keçirməyə icazəsi olan 45 həkim var. Onların siyahısı dərc olunub. İlbəil onların sayı arta bilər. Çünki rezidenturanı bitirən, xaricdə təhsil alıb qayıdan həkimlər var.

Nazirin sözlərinə görə, ölkədə plastik rekonstruktiv və estetik cərrahiyyə üzrə iki mərkəz yaradılıb. «Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzində xüsusi şöbə yaradılıb. O şöbə tam olaraq kadrlarla təmin edilib və ən müasir avadanlıqlarla təchiz olunub. Həmçinin Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmillə?dirmə İnstitutunun kliniki bazası olan Plastik və Rekonstruktiv Cərrahiyyə Klinikası əsaslı təmin olunub. Yaxın günlərdə onun açılışı nəzərdə tutulur».

Teymur Musayev həmçinin məlumat verib ki, özəl sektorda onkoloji xidmət göstərmək və bu icazəni almaq üçün xüsusi qaydalar, tələblər hazırlanıb. Səhiyyə naziri bu tələblərin çox ciddi olduğunu deyib: «Yalnız ən yüksək tələblərə cavab verən müəssisələrə həmin lisenziya veriləcək», - deyə Teymur Musayev qeyd edib.

# Pediatriya üzrə beynəlxalq konqres keçirilib

**Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti və Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalının birgə təşkilatçılığı ilə «Pediatriyada elmi irs və innovasiyalar: Hibrid dünyada uşaq olmaq» adlı beynəlxalq konqres keçirilib.**




AZƏRTAC xəbər verir ki, pediatriya sahəsində görkəmli alimlərin yubileylərinə həsr olunmuş tədbir Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlanıb. Daha sonra konqres iştirakçıları Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsini birdəqiqəlik sükutla yad ediblər.



Konqresin açılış mərasimində Azərbaycan Tibb Universitetinin prorektoru, professor Məlahət Sultan, Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi rəisinin müavini, tibb üzrə fəlsəfə doktoru, dosent İsmayıl Əfəndiyev, Səhiyyə Nazirliyinin Səhiyyə siyasəti şöbəsinin müdiri Ramiq Quliyev, I Uşaq xəstəlikləri kafedrasının müdiri, professor Rauf Bəylərov və başqaları çıxış ediblər.

Qeyd edilib ki, Azərbaycanda pediatriya sahəsinin sistemli və dayanıqlı inkişafının əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Liderin rəhbərliyi dövründə səhiyyə sahəsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilib, səhiyyə infrastrukturunun möhkəmləndirilməsi, yeni tibb müəssisələrinin yaradılması və mövcud xəstəxanaların maddi-texniki bazasının gücləndirilməsi sahəsində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilib. Həmin siyasət nəticəsində, xüsusilə ana və uşaq sağlamlığının qorunması sahəsində mühüm uğurlar əldə olunub, pediatriya xidmətinin inkişafı üçün möhkəm təməl formalaşıb.

Bildirilib ki, həmin strateji xətt hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Həyata keçirilən ardıcıl islahatlar pediatriya sahəsinin daha da inkişafına, uşaqların sağlam gələcəyinin təmin olunmasına xidmət edir.

*(Davamı 7-ci səhifədə)*

# Səhiyyə Nazirliyi «Qlobal səhiyyə diplomatiyası üzrə yüksək səviyyəli dialoq»da təmsil olunub

**Ümumdünya Səhiyyə Təşkilatının Avropa Regional Ofisi tərəfindən 16-18 fevral 2026-cı il tarixlərində Aşqabad şəhərində «Qlobal səhiyyə diplomatiyası üzrə yüksək səviyyəli dialoq» mövzusunda konfrans-seminar keçirilib.**





Səhiyyə Nazirliyi mətbuat xidmətinin verdiyi məlumata görə, tədbir Türkmənistan hökumətinin dəstəyi ilə təşkil olunub və yüksək səviyyəli beynəlxalq nümayəndə heyətlərini bir araya gətirib.

Konfrans ÜST-nin Avropa Regional Ofisinin «Əlaqə, Müdafiə və Diplomatiya vasitəsilə Sağlamlıq üçün Fəaliyyət» (AHEAD) təşəbbüsü çərçivəsində baş tutub və səhiyyə sahəsində diplomatik əməkdaşlığın gücləndirilməsinə həsr olunub.

70-dən artıq mütəxəssisin iştirak etdiyi tədbirdə Azərbaycan Səhiyyə Nazirliyinin nümayəndəsi ölkəmizin qlobal səhiyyə diplomatiyasında fəal iştirakı, beynəlxalq platformalarda həyata keçirilən humanitar təşəbbüslər, COVID-19 pandemiyasına qarşı qlobal cavab tədbirlərində rolu, eləcə də COP29 çərçivəsində irəli sürülən iqlim diplomatiyası təşəbbüsləri və Türk Dövlətləri Təşkilatı çərçivəsində səhiyyə sahəsində əməkdaşlıq barədə məlumat verib.




Dialoq çərçivəsində səhiyyə və diplomatiya sahəsində əməkdaşlığın genişləndirilməsi, səhiyyə təhlükəsizliyinin möhkəmləndirilməsi və strateji kommunikasiya bacarıqlarının inkişafı məsələləri müzakirə olunub.

*(Əvvəli 6-cı səhifədə)*

# Pediatriya üzrə beynəlxalq konqres keçirilib

Professorlar Ənvər Həsənoğlu, Özgür Kasapçopur və Nailə Sultanovanın moderatorluğu ilə başlayan plenar sessiyada professor Rauf Bəylərov «Pediatriya: Tarix, irs və gələcəyə baxış», Atlas Universitetinin Tibb fakültəsinin dekanı, professor Metin Çetinkaya «Gələcəyin pediatrı - 2035 baxışı: Rəqəmsal, genetik və sosial çağırışlar», akademik Aleksandr Qorelov «Respirator virus infeksiyalarının müalicəsində aktual tövsiyələr» və Əməkdar elm xadimi, professor Lalə Allahverdiyeva «Pediatriyada azalmayan problem: Xroniki öskürək - yeni alqoritmlər və rəqəmsal tətbiqlər» mövzularında məruzələrlə çıxış ediblər.

Sonra konqres işini seksiyalarda davam etdirib. Seksiyalar Əməkdar elm xadimi, akademik Adilə Əvəz qızı Namazovanın 100 illik, professor Amaliya Abdulla qızı Əyyubovanın 90 illik, professor Surxay Novruz oğlu Musayevin 75 illik, Əməkdar elm xadimi, professor Nəsib Cəfər oğlu Quliyevin 75 illik və professor Səfixan Şamil oğlu Həsənovun 70 illik yubileylərinə, konqresin ikinci günü keçirilən simpozium isə Əməkdar həkim, tibb elmləri doktoru, professor Nəsibə Ağaismayıl qızı Hüseynovanın 100 illik yubileyinə həsr olunub.

Simpoziumda çıxış edən Mərkəzi Gömrük Hospitalının (MGH) rəisi, baş həkim, tibb elmləri doktoru Bəxtiyar Musayev professor Nəsibə Hüseynovanın Azərbaycan pediatriyasının inkişafındakı müstəsna rolundan danışıb, qeyd edib ki, alimin formalaşdırdığı elmi məktəb və yetişdirdiyi kadrlar bu gün də ölkəmizdə pediatriya sahəsinin inkişafına mühüm töhfələr verir.

Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi rəisinin müavini, tibb üzrə fəlsəfə doktoru, dosent İsmayıl Əfəndiyev və Azərbaycan Tibb Universitetinin I Uşaq xəstəlikləri kafedrasının müdiri, professor Rauf Bəylərov çıxış edərək professor Nəsibə Hüseynovanın zəngin elmi irsinin pediatriyada klinik düşüncə tərzinin, elmi yanaşmanın və müasir müalicə prinsiplərinin formalaşmasında, eləcə də gənc həkimlərin və rezidentlərin hazırlanmasında mühüm rol oynaması barədə ətraflı danışıblar.

Daha sonra professor Nəsibə Hüseynovanın 100 illik yubileyinə həsr olunmuş videoçarx nümayiş etdirilib. Videoçarxda görkəmli alimin zəngin və çoxşaxəli elmi-pedaqoji fəaliyyəti, Azərbaycan pediatriyasının inkişafına verdiyi mühüm töhfələr, formalaşdırdığı elmi məktəb və yetişdirdiyi çoxsaylı həkim kadrlar barədə ətraflı məlumat təqdim olunub.

Professor Rauf Bəylərovun və dosent İsmayıl Əfəndiyevin moderatorluğu ilə keçirilən «Seliakiya və qida allergenlərinə yeni yanaşma: rəqəmsal pəhriz nəzarəti və sensor texnologiyaları» mövzusunda interaktiv paneldə ATU-nun Uşaq xəstəlikləri kafedrasının dosenti Sabirə Hüseynova və uzman diyetoloq Lala Mahmudova interaktiv panelin mövzusunda, ATU-nun II Uşaq xəstəlikləri kafedrasının dosenti Təranə Tağızadə «Uşaq qastroenterologiyasında klinik və bioetik çağırışlar», ATU-nun I Uşaq xəstəlikləri kafedrasının dosenti Nigar Bayramova «Rəqəmsal bağırsaq sağlamlığı - Mikrobiota - Davranış - Ətraf mühit», MGH-nın şöbə rəisi, pediatr-neonatoloq-reanimatoloq Telman Aytayev «Uşaqlarda qaraciyərin genetik və metabolik xəstəliklərinə ümumi yanaşma» mövzularında çıxış ediblər.

Tibb üzrə fəlsəfə doktoru Gülnarə Nəsrullayeva, tibb üzrə fəlsəfə doktoru Nüşabə Mollayeva və Bəyaz Namazovanın moderatorluğu ilə keçirilən ikinci sessiyada Respublika Pediatriya Mərkəzinin həkimi Azər Əhmədov «Kəskin və xronik ishalın tele-tibdə idarə edilməsi; Dehidratasiya riskinin Sİ analizləri», MGH-nın şöbə rəisi, uşaq cərrahı Vüsal Cəfərov «Uşaqlarda öd daşı xəstəliyinə müasir yanaşma», MGH-nın pediatr-neonatoloq-reanimatoloqu Təranə Göyüşova «Autizm spektr pozulması olan uşaqlarda vitamin və mikronutrient dəstəyi», «Baku Medical Plaza» klinikasında Pediatriya və neonatologiya, yenidoğulmuşların reanimasiyası şöbəsinin müdiri Erkin Rəhimov və «Medera» klinikasının həkimi Əli Quliyev «Mini-debat: Uşaqlarda xroniki qəbizliyə multidisiplinar yanaşma», MGH-nın həkimi Aygün Sadıxova «Uşaqlarda laktoz çatışmazlığı» mövzularında çıxış ediblər.

Professor Aytən Məmmədbəylinin, dosent Nigar Bayramovanın və tibb elmləri üzrə fəlsəfə doktoru Əli Quliyevin moderatorluğu ilə keçirilən «İnteraktiv sessiya: beynin inkişaf yolu və inkişaf geriliklərində qırmızı bayraq» panelində ATU-nun II Uşaq xəstəlikləri kafedrasının həkimi Nərgiz Məmmədova «Prematüre və yüksək riskli yenidoğulmuşların erkən nevroloji qiymətləndirilməsi və inkişaf monitorinqi», Qarabağ Universiteti Tibb və sağlamlıq elmləri fakültəsinin dekan müavini, Qarabağ Universiteti Klinikasının baş həkimi İkram Rüstəmov «Hibrid dünyada inkişaf geriliyi, autizm və davranış problemləri: kim, nə zaman və haraya yönləndirilməlidir?», Nitq və inkişaf pozulmaları üzrə uzman Nigar Həsənova «Peyk simpozium. Autizmli uşaqların elmi sübuta əsaslanan təlimi» mövzularında çıxış ediblər.

Simpoziumun sonunda qeyd olunub ki, belə genişmiqyaslı və elmi baxımdan zəngin proqram pediatriya sahəsində aktual problemlərin müzakirəsi, innovativ yanaşmaların tətbiqi və multidisiplinar əməkdaşlığın gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Çıxış edənlər vurğulayıblar ki, professor Nəsibə Hüseynovanın zəngin elmi irsinin işığında keçirilən bu simpozium həm milli pediatriya elminin inkişafına yeni impuls verir, həm də gənc mütəxəssislər üçün dəyərli təcrübə platforması rolunu oynayır.

Tədbir Səhiyyə Nazirliyinin «Davamlı Tibbi Təhsil üzrə elm və tədris tədbirlərinin akkreditasiya Qaydaları» əsasında akkreditasiya olunaraq 10 DTT balı ilə qiymətləndirilib.

# Xarici ölkələrə səyahət edərkən üzərinizdə üzərlik götürməyin

**Səhiyyə Nazirliyi vətəndaşlara üzərlik bitkisi ilə bağlı xəbərdarlıq edib. Nazirliyin mətbuat xidmətinin yaydığı məlumatda bildirilir ki, son vaxtlar sosial şəbəkələrdə və kütləvi informasiya vasitələrində üzərlik bitkisinin (xalq arasında «üzərlik», «qarmala» kimi tanınır) istifadəsi, xarici ölkələrə aparılması və buna görə hüquqi məsuliyyətə cəlb olunma halları ilə bağlı müxtəlif xəbərlər yayılmaqdadır.**

Ölkəmizdə üzərlik bitkisinin yandırılması (tüstülənməsi) qədim ənənə kimi qəbul olunur və konkret formada ondan istifadə ilə bağlı birbaşa qadağa mövcud deyil. Lakin «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Qanuna əsasən, tərkibində narkotik və ya psixotrop təsirli maddələr olan bitkilərin kultivasiyası, idxalı, satışı və istifadəsi məhdudlaşdırıla bilər.

Tərkibindəki psixoaktiv alkaloidlərə görə üzərlik bitkisi və onun ekstraktları bir çox ölkələrdə nəzarətə alınan maddələr siyahısına daxil edilib. Rusiya Federasiyası hökumətinin müvafiq qərarı ilə üzərlik (qarmala) bitkisi rəsmən «narkotik vasitələr olan bitkilər» siyahısına salınıb. Bu o deməkdir ki, Rusiya ərazisində həmin bitkinin idxalı, daşınması, saxlanılması və satışı qanunsuz hesab edilir və cinayət məsuliyyətinə səbəb olur.




Səhiyyə Nazirliyi vətəndaşların sağlamlığının qorunması və maarifləndirilməsi məqsədilə üzərlik bitkisinin tərkibi, onun insan orqanizminə təsiri və bu sahədə mövcud olan risklər barədə bir sıra vacib məlumatları diqqətə çatdırır.

Üzərlik bitkisinin tərkibində harmin, harmalin, harmalol və tetrahidroharmin kimi alkaloidlər mövcuddur. Onlar elmi ədəbiyyatda «harmala alkaloidləri» və ya «beta-karbolin alkaloidləri» adlanır. Həmin qrup alkaloidlər mərkəzi sinir sisteminə təsir göstərən psixoaktiv birləşmələrdir.

Məlumatda qeyd edilir ki, harmin və harmalin monoaminoksidaz inhibitorları (MAOİ) qrupuna aiddir. Həmin maddələr beynin müəyyən funksiyalarına təsir edərək sinir impulslarının ötürülməsini dəyişdirir. Onlar orqanizmdə serotonin, dopamin və adrenalin kimi neyrotransmitterlərin parçalanmasını ləngidir, nəticədə, bu maddələrin sinir sistemindəki konsentrasiyası artır.

«Xarici ölkələrə səyahət edərkən üzərlik bitkisini, onun toxumlarını, hissəciklərini və ya törəmələrini üzərinizdə götürməyin. Bəzi ölkələrdə bu bitkinin hətta kiçik miqdarda aşkarlanması ağır hüquqi nəticələrə səbəb ola bilər. Səhiyyə Nazirliyi vətəndaşlarımızın sağlamlığının qorunması və onların hüquqi risklərdən qorunması məqsədilə maarifləndirmə işlərini davam etdirəcək. Hər hansı bir bitkinin dərman məqsədli istifadəsindən əvvəl mütləq həkimə müraciət edilməsi tövsiyə olunur», - deyə məlumatda bildirilir.

# Elektron resept sistemi ilə bağlı onlayn təlim keçirilib

**Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə V.Axundov adına Elmi Tədqiqat Tibbi Profilaktika İnstitutunun klinikasında fəaliyyət göstərən həkimlər üçün elektron resept sistemi üzrə yeniləyici onlayn təlim keçirilib.**



Nazirliyin mətbuat xidməti bildirir ki, təlim zamanı həkimlər elektron reseptin düzgün tərtib edilməsi, məlumatların dəqiqliklə daxil edilməsi, reseptlərin təsdiqi və apteklərə ötürülməsi prosesi ilə tanış olublar. Eyni zamanda, məlumat təhlükəsizliyi və məxfilik məsələlərinə xüsusi diqqət yetirilib.

Təlimin məqsədi həm mövcud biliklərin yenilənməsi, həm də sistemdəki yeniliklərin izahı və tətbiq zamanı rast gələnən texniki məsələlərin müzakirəsi olub. Elektron resept sistemi tibbi xidmətlərin şəffaflığını artırır, dərman vasitələrinin vahid elektron platforma üzərindən rəsmiləşməsini təmin edir və pasiyentlərə göstərilən xidmətin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Səhiyyədə rəqəmsallaşma prosesində elektron resept sisteminin rolu vurğulanaraq, onun effektiv tətbiqinin davamlı təkmilləşdirilməsi önə çəkilib.

# Səhiyyə Nazirliyinin həssas əhali qrupları üçün səyyar xidməti çərçivəsində 8 mindən çox vətəndaş müayinə olunub

**Səhiyyə Nazirliyinin təşəbbüsü və dəstəyi ilə həyata keçirilən profilaktik tibbi müayinələr çərçivəsində Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Stomatoloji Klinikasının səyyar stomatoloji xidməti bir sıra sosial müəssisələrdə aksiyalar keçirib. Nazirliyin koordinasiyası ilə həyata keçirilən səyyar müayinələr 1, 2 və 3 saylı uşaq evlərində, Ahıl Şəxslər üçün Sosial Xidmət Müəssisəsində, Binəqədi rayonu Xocəsən bələdiyyəsində, əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrində, həssas əhali qrupları üçün sığınacaq və reabilitasiya mərkəzlərində təşkil edilib.**







Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, bu tədbirlər zamanı əhalinin ağız və diş sağlamlığı üzrə ilkin müayinələr aparılıb, profilaktik tövsiyələr verilib və sağlam həyat tərzinin təşviqi məqsədilə maarifləndirmə işləri həyata keçirilib.

Səyyar xidmətlər nəticəsində 8000-dən çox vətəndaş müayinədən keçib, onlardan 300 nəfəri əlavə müalicə üçün klinikaya yönləndirilib.

Layihənin icrasında ATU-nun Tədris Stomatoloji Klinikasının rezidentləri və həkim heyəti fəal iştirak edərək əhali üçün stomatoloji xidmətlərin əlçatanlığını artırıb. Eyni zamanda, bu proses gənc mütəxəssislərin praktik bilik və bacarıqlarının inkişafına da mühüm töhfə verib.

Səyyar stomatoloji xidmətlər Səhiyyə Nazirliyinin sağlamlığın qorunması və profilaktikanın gücləndirilməsinə yönəlmiş dövlət siyasətinin tərkib hissəsi olaraq həyata keçirilir.

Tədbirlər ATU və aidiyyəti qurumların iştirakı ilə davam etdirilir və gələcəkdə ölkənin bütün bölgələrini əhatə etməsi nəzərdə tutulur.

# Azərbaycanın Gənc Oftalmoloqlarının XVII konfransı və III Forumu keçirilib

**Əməkdar elm xadimi, professor Zəhra Quliyevanın xatirəsinə həsr olunmuş Azərbaycan Gənc Oftalmoloqlarının XVII konfransı və Azərbaycan Gənc Oftalmoloqlarının III Forumu keçirilib.**





AZƏRTAC xəbər verir ki, tədbir Səhiyyə Nazirliyi, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi və Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin (AOC) birgə təşəbbüsü ilə təşkil edilib.

Konfransda çıxış edən AOC Gənc Oftalmoloqlar komitəsinin koordinatoru Emin Əlihüseynli komitənin təsis edilməsi, gənclərin komitənin işinə cəlb olunması, həmçinin gələcək planlar barədə iştirakçılara məlumat verib.

Azərbaycan Gənc Oftalmoloqlarının Forumu Akademik Zərifə Əliyeva adına Azərbaycan Milli Oftalmologiya Mərkəzinin direktoru, AMEA-nın müxbir üzvü Elmar Qasımovun dəstəyi ilə həyata keçirilib.

Forumda Elmar Qasımov çıxış edərək söyləyib ki, gənc oftalmoloqların beynəlxalq standartlara uyğun bilik və bacarıqlara malik mütəxəssislər kimi formalaşması, onların elmi və klinik təcrübəsinin zənginləşdirilməsi, yeni nəsil həkimlərin inkişafına şərait yaradılması bu istiqamətdə aparılan fəaliyyətin əsas prioritetlərindəndir. Oftalmologiyamızın gələcəyini təmsil edən gənc mütəxəssislər daim Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin rəhbərliyinin və Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin diqqət mərkəzindədir.

Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin sədr müavini Yazgül Abdıyeva, Azərbaycan Tibb Universitetinin Oftalmologiya kafedrasının müdiri, professor Paşa Musayev, həmçinin kafedranın dosenti Səriyə Quliyeva professor Zəhra Quliyevanın həyatı, zəngin elmi irsindən bəhs ediblər.

Çıxışçılar qeyd ediblər ki, professor Zəhra Quliyeva uzun illər ərzində həm elmi, həm də klinik fəaliyyəti ilə oftalmologiyanın müxtəlif sahələrinin inkişafına mühüm töhfələr verib, yüzlərlə həkimin formalaşmasında böyük rol oynayıb, yüksək peşəkarlığı və müəllimlik məktəbi ilə yadda qalmış görkəmli alim, eyni zamanda, pedaqoq kimi xatırlanır.

AOC Gənc Oftalmoloqlar Komitəsinin sədri Mirana Mirişova açılış nitqi ilə çıxış edib.

Daha sonra Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin İdarə Heyətinin üzvü Ceyhun Nəzərliyə "Gənc Oftalmoloqların Dostu" fəxri adının kuboku və diplomu təqdim edilib.

Tədbirdə oftalmologiyanın müasir problemləri, innovativ cərrahi və diaqnostik metodlar, süni intellektin göz xəstəliklərinin diaqnostikasında tətbiqi, müxtəlif klinik hallar və digər aktual mövzular məruzə edilib.

Bu il konfrans çərçivəsində ilk dəfə olaraq «Gənc Retina Mütəxəssislərinin Klubu» təşkil olunub.

Builki forumun əsas məqsədi süni intellektin müasir oftalmologiyada tətbiqi imkanlarını gənc mütəxəssislərin diqqətinə çatdırmaq, klinik praktikada və elmi tədqiqatlarda bu texnologiyaların rolunu müzakirə etmək, eləcə də gənc oftalmoloqların peşəkar inkişafında innovativ yanaşmaların əhəmiyyətini vurğulamaqdır.

Forum çərçivəsində süni intellekt əsaslı diaqnostik alətlər, klinik qərarvermə dəstəyi sistemləri, teleoftalmologiya, eləcə də etik və hüquqi məsələlər ətrafında panel müzakirələr və interaktiv sessiyalar keçirilib.

# Kardiologiya İnstitutunda elektrofiziologiya laboratoriyası yaradılıb



**Azərbaycanda səhiyyə sahəsində həyata keçirilən islahatlar çərçivəsində Səhiyyə Nazirliyinin tabeliyində fəaliyyət göstərən Elmi Tədqiqat Kardiologiya İnstitutunda elektrofiziologiya (EPİ) laboratoriyası istifadəyə verilib. Bu, dövlət tibb müəssisəsində yaradılan ilk belə ixtisaslaşmış laboratoriyadır.**

Nazirliyin mətbuat xidmətinin bu barədə yaydığı məlumatda bildirilir ki, yeni yaradılmış laboratoriyada ürək ritm pozuntularının diaqnostikası və müalicəsi məqsədilə invaziv elektrofizioloji müayinələr aparılır. Müasir tibbi avadanlıqlar vasitəsilə ürəyin «elektrik xəritəsi» hazırlanır, aritmiyaya səbəb olan ocaqlar dəqiq müəyyənləşdirilərək ablasiya üsulu ilə aradan qaldırılır.

Əhəmiyyətli məqamlardan biri də ondan ibarətdir ki, bu prosedurlar ölkədə ilk dəfə olaraq dövlət tibb müəssisəsində və tam ödənişsiz əsaslarla icra edilir. Bu isə vətəndaşların yüksək ixtisaslı aritmoloji xidmətlərə əlçatanlığını artırır.

Laboratoriyanın fəaliyyətə başlaması ürək ritm pozuntularından əziyyət çəkən xəstələrin vaxtında və effektiv müalicəsinə geniş imkanlar yaradacaq, eyni zamanda, onların özəl tibb müəssisələrinə müraciət ehtiyacını minimuma endirəcək.

# İnsult üzrə multidissiplinar elmi-praktik konfrans keçirilib

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İnsult Xidməti Pilot Layihəsi və Almaniya - Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin elmi əməkdaşlığı çərçivəsində Bakıda beynəlxalq elmi-praktik konfrans keçirilib. Səhiyyə Nazirliyinin Bakı Sağlamlıq Mərkəzi və İctimai Səhiyyə və İslahatlar Mərkəzinin birgə təşkilatçılığı ilə baş tutan konfrans insult üzrə müasir tibbi xidmətlərin yaradılması və bu sahədə həyatqurtarıcı yüksəktexnoloji müdaxilələrin inkişafına həsr edilib.**





Bu barədə nazirliyin mətbuat xidmətindən verilən məlumatda bildirilir ki, beynəlxalq tədbirdə Almaniyanın müxtəlif şəhərlərində fəaliyyət göstərən aparıcı klinikaların rəhbərləri, insult və neyroradiologiya üzrə tanınmış mütəxəssislər iştirak ediblər. Qonaqlar arasında Almaniya - Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin sədri, Köln Universitetinin Tibb fakültəsinin üzvü, «GFO Kliniken Troisdorf»un klinika rəhbəri professor Nuran Abdullayev, Münxen Klinikasında direktor vəzifəsində çalışan professor Anastasios Mpotsaris, Aşaffenburq şəhərində klinika rəhbəri olan Volker Maus, eləcə də Almaniyada fəaliyyət göstərən, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin məsləhətçisi, insult üzrə beynəlxalq ekspert, Essen Universitetinin professoru Zaza Katsarava yer alıblar.

Bakı Sağlamlıq Mərkəzinin İcraçı direktoru Asiman Həsənov, Səhiyyə Nazirliyinin İnsult Layihəsinin rəhbəri, Bakı Sağlamlıq Mərkəzinin İnsult bölümünün rəhbəri Pərvin Allahyarova, ölkəmizin aparıcı tibb müəssisələrinin rəhbərləri, yerli və beynəlxalq ekspertlər konfransda çıxış ediblər. İnsult mərkəzlərinin təşkili, kəskin işemik insult zamanı mexaniki trombektomiya, pasiyent seçimi, süni intellektin diaqnostik proseslərdə rolu və multidissiplinar yanaşmalar və digər mövzular ətrafında müzakirələr aparılıb.

# «Hüquqlarınla parla!» layihəsinin bağlanışı olub





**Tofiq İsmayılov adına 6 nömrəli məktəb-liseydə «Hüquqlarınla parla!» layihəsinin bağlanış tədbiri keçirilib.**





Səhiyyə Nazirliyinin mətbuat xidmətinin verdiyi məlumata görə, tədbir çərçivəsində Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) Səbinə Əliyeva, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Azərbaycan Respublikası səhiyyə nazirinin müavini İlqar Qasımov, «Nar»ın İctimaiyyətlə əlaqələr və korporativ ünsiyyət departamentinin direktoru Hökümə Kərimova, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının baş katibi Fidan Əhmədova, Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədr müavini Faiq Ağayev və İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru Səbinə Babazadə çıxış edərək «Hüquqlarınla parla!» layihəsinin uşaqların öz hüquqları barədə məlumatlılığının artırılmasına, onların təhlükəsiz və sağlam mühitdə inkişafına dəstək göstərməsinə, cəmiyyətdə hüquqi maarifləndirmənin genişləndirilməsinə xidmət etdiyini və layihə çərçivəsində əldə olunan nəticələrin gələcək təşəbbüslər üçün mühüm zəmin yaratdığını vurğulayıblar.

Daha sonra «Regional İnkişaf» İctimai Birliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Murad Qasımlı təqdimatla çıxış edərək layihə çərçivəsində görülən işlər barədə iştirakçıları məlumatlandırıb.

Tədbirin davamında təlimlərdə yüksək nəticə göstərən məktəblilər, eləcə də həssas kateqoriyadan olan uşaqlar üçün keçirilən keys müsabiqəsində ekspertlərin səsverməsi ilə seçilən qalib komandalar hədiyyə və diplomlarla, iştirak edən məktəblilər isə sertifikatlarla təltif olunub.

«Hüquqlarınla Parla!» layihəsi Azərbaycan Respublikası Milli Məclisi, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı, Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, «Regional İnkişaf» İctimai Birliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi, Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası təşkilatçılığı, «Nar»ın maliyyə dəstəyi ilə icra olunub.

# İİV/QİÇS-ə dair klinik protokolların tətbiqi ilə bağlı vebinar keçirilib

**Səhiyyə Nazirliyi Respublika QİÇS-lə Mübarizə Mərkəzi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) birgə əməkdaşlığı çərçivəsində İİV/QİÇS-ə dair klinik protokolların tətbiqi ilə bağlı ölkəmiqyaslı vebinar təşkil olunub.**

Nazirliyin mətbuat xidməti bildirir ki, vebinarda Mərkəzin direktor müavini Günəş Cəfərova tərəfindən antiretrovirus terapiya, opportunistik infeksiyalar və müasir müalicə yanaşmaları barədə ətraflı məlumat təqdim edilib.

Onlayn tədbirdə TƏBİB-in tabeliyində fəaliyyət göstərən tibb müəssisələrindən 100-ə yaxın tibb işçisi iştirak edib. Vebinar iştirakçılarının suallarının cavablandırılması və faydalı müzakirələrlə yekunlaşıb.



# Səhiyyə Nazirliyi xəbərdarlıq edir: Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin adından qanunsuz yoxlamalar aparılır

**Son dövrlərdə Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin adından qanunsuz istifadə olunması halları qeydə alınır.**




Bu barədə Səhiyyə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, mərkəzin adından çıxış edən bəzi şəxslər Bakı şəhərinin müxtəlif rayonlarında, eləcə də ölkənin digər bölgələrində fəaliyyət göstərən obyektlərə yaxınlaşaraq sanitar-epidemioloji vəziyyətin guya qənaətbəxş olmadığı barədə əsassız iddialar irəli sürür, dezinfeksiya, dezinseksiya, deratizasiya və digər xidmətlərin həyata keçirilməsinin zəruri olduğunu bildirir, əks təqdirdə inzibati məsuliyyət tədbirlərinin görüləcəyi ilə bağlı xəbərdarlıq edirlər.

Bununla əlaqədar olaraq bildirilir ki, Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə əsasən dövlət sanitariya-epidemioloji nəzarəti çərçivəsində yoxlamalar yalnız qanunla müəyyən edilmiş qaydada həyata keçirilir. Bu zaman vəzifəli şəxslər mütləq qaydada öz xidməti vəsiqələrini təqdim etməli, həmçinin sahibkarlıq subyektlərinə münasibətdə yoxlamanın aparılması barədə qərarın surətini və yoxlamanın sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınması haqqında çıxarışı təqdim etməlidirlər. Rəsmi yoxlamalar yalnız Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin səlahiyyətli əməkdaşları tərəfindən və müvafiq hüquqi əsaslar mövcud olduqda aparılır. Mərkəzin adından istifadə etməklə hər hansı kommersiya xidmətlərinin təklif edilməsi və ya hədə-qorxu yolu ilə ödəniş tələb olunması qanunsuzdur.

Vətəndaşlardan və sahibkarlıq subyektlərindən belə hallarla qarşılaşdıqda dərhal aidiyyəti üzrə Səhiyyə Nazirliyinin 9103 qaynar xətti, Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin (012) 421-13-93 nömrəsi və ya Daxili İşlər Nazirliyinin 102 xidməti vasitəsilə məlumat vermələri xahiş olunur.

Səhiyyə Nazirliyi bir daha vətəndaşları diqqətli olmağa, bu kimi hallara qarşı həssas yanaşmağa və yalnız rəsmi dövlət qurumlarının təqdim etdiyi məlumatlara etibar etməyə çağırır.

# İSİM ilə Azərbaycan Pediatriya Cəmiyyəti arasında Memorandum imzalanıb



**Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) ilə «Azərbaycan Pediatriya Cəmiyyəti» İctimai Birliyi (APCİB) arasında Əməkdaşlıq Memorandumu imzalanıb. Bu barədə Mərkəzdən verilən məlumata görə, sənəd İSİM və APCİB arasında ikitərəfli əməkdaşlığın çərçivələrini müəyyən edir.**

Memorandumu İSİM-in baş direktoru Səbinə Babazadə və APCİB-in sədri Əli Quliyev imzalayıblar. Bu əməkdaşlıq Azərbaycanda körpə və uşaq sağlamlığının inkişafı, pediatriyanın tərəqqisi istiqamətində birgə fəaliyyəti əhatə edir.

Əməkdaşlıq çərçivəsində sağlam həyat tərzinin təşviqi, sanitar-maarifləndirmə, fiziki aktivliyin təbliği və s. fəaliyyətlər nəzərdə tutulur. Həmçinin dövlət proqramları və milli fəaliyyət planlarından irəli gələn, uşaqların sağlamlıq göstəricilərinin yaxşılaşdırılmasına yönəlmiş tədbirlərin icrası əməkdaşlığın prioritet istiqamətlərini təşkil edir.

# Səhiyyə Nazirliyindən Ağdərənin balaca sakinləri üçün tibbi aksiya

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutu tərəfindən «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində Ağdərə rayonunda yaşayan uşaqlar üçün kompleks səyyar tibbi müayinələr həyata keçirilib.**

Nazirliyin mətbuat xidmətinin bildirdiyinə görə, tibbi aksiya əhalinin sağlamlığının qorunması, xüsusilə azad olunmuş ərazilərə qayıdan ailələrin və uşaqların keyfiyyətli səhiyyə xidmətlərinə əlçatanlığının təmin edilməsi məqsədi daşıyıb. Səyyar müayinələrdə İnstitutun yüksəkixtisaslı həkim heyəti - pediatrlar, nevroloqlar, kardioloqlar, endokrinoloqlar, oftalmoloqlar, otorinolarinqoloqlar və digər sahə mütəxəssisləri iştirak ediblər.

Müayinələr zamanı uşaqların ümumi sağlamlıq vəziyyəti qiymətləndirilib, profilaktik baxışlar aparılıb, zəruri laborator və instrumental yoxlamalar həyata keçirilib. Aşkarlanan xəstəliklər və sağlamlıq problemləri ilə bağlı valideynlərə ətraflı tibbi məsləhətlər verilib, ehtiyac yarandığı hallarda uşaqların müvafiq ixtisaslaşmış tibb müəssisələrində müalicə və nəzarətə cəlb olunması üçün tövsiyələr təqdim edilib.

Aksiya çərçivəsində həmçinin valideynlərlə maarifləndirici söhbətlər aparılıb, uşaqların sağlam inkişafı, düzgün qidalanma, peyvəndləmə, mövsümi xəstəliklərin profilaktikası və sağlam həyat tərzi ilə bağlı ətraflı məlumatlar verilib.







Pediatriya İnstitutunun həkim heyəti tərəfindən Ağdərə rayonunda ümumilikdə 100-ə yaxın uşaq kompleks müayinələrdən keçirilib.

Uşaqlarda ümumi kliniki, antropometrik ölçülər, görmə, eşitmə müayinələri, ürəyin (exokardioqrafiya), qarın boşluğu orqanlarının USM, nevroloji statusun qiymətləndirilməsi aparılıb.

Qeyd edək ki, «Böyük Qayıdış» Dövlət Proqramı çərçivəsində işğaldan azad olunmuş ərazilərdə səhiyyə xidmətlərinin mərhələli şəkildə təşkili və əhalinin tibbi təminatının gücləndirilməsi istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutu tərəfindən təşkil olunan bu səyyar tibbi müayinələr həmin tədbirlərin tərkib hissəsi olmaqla, bölgədə yaşayan uşaqların sağlamlığının qorunmasına mühüm töhfə verir.

Səhiyyə Nazirliyi azad olunmuş və yenidən məskunlaşdırılan ərazilərdə uşaqlar və digər əhali qrupları üçün profilaktik və müalicəvi tibbi aksiyaların davam etdirilməsini nəzərdə tutur.

# Ağcabədi və Gəncə məktəbliləri üçün maarifləndirici tədbirlər təşkil olunub

**Səhiyyə Nazirliyi ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə əməkdaşlığı çərçivəsində əhali arasında növbəti maarifləndirmə tədbirləri keçirilib. Ağcabədi regional «ASAN xidmət» mərkəzi və Gəncə şəhər 2 saylı «ASAN xidmət» mərkəzində təşkil olunan tədbirlərdə yuxarı sinif şagirdləri iştirak ediblər.**






Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzindən (İSİM) verilən məlumata görə, İSİM-in Monitorinq və təhlil şöbəsinin müdir müavini Zümrüd Kazımova erkən evliliyin fəsadları, həkim-metodisti Sevinc Bağırova sağlam həyat tərzinin faydaları barədə ətraflı məlumat veriblər.

Dövlət Komitəsinin və «ASAN xidmət» mərkəzinin nümayəndələri çıxış edərək, uşaq hüquqlarının müdafiəsi sahəsində dövlət siyasəti və həyata keçirilən tədbirlərdən söz açıblar.

Yekunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb və onlara marifləndirici materiallar təqdim olunub.

# Azərbaycan və Yaponiya arasında rəqəmsal səhiyyə və tibbi təhsil sahəsində əməkdaşlıq imkanları müzakirə olunub

**Yaponiyanın Daxili İşlər və Rabitə Nazirliyinin təşəbbüsü ilə bu ölkənin rəqəmsal təhsil texnologiyaları sahəsində fəaliyyət göstərən «Digital Knowledge» şirkətinin nümayəndə heyəti ölkəmizə üçüncü dəfə səfər edib.**



Səhiyyə Nazirliyinin mətbuat xidməti məlumat verir ki, səfər çərçivəsində nümayəndə heyəti ilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyində, nazirliyin tabeliyində fəaliyyət göstərən K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutunda, Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunda, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda (ADHTİ), eləcə də Azərbaycan Tibb Universitetində (ATU) bir sıra görüşlər keçirilib.

Görüşlər zamanı nümayəndə heyətinə ixtisaslaşmış tibb müəssisələrinin fəaliyyəti, maddi-texniki bazası və mövcud infrastruktur imkanları barədə ətraflı məlumat verilib.

Eyni zamanda, tibb bacılığı üzrə təlim proqramının demo versiyası nümayiş olunub, rəqəmsal platformaların tətbiqi, tibbi təhsildə innovativ yanaşmalar və səhiyyə sistemində kağızsız idarəetmə modelinə keçid məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Tərəflər mümkün əməkdaşlıq istiqamətlərini və gələcəkdə anlaşma memorandumunun imzalanması perspektivlərini müzakirə ediblər.

ADHTİ-dən verilən məlumata görə, İnstitutda keçirilən görü? zamanı ana və u?aqlar üçün rəqəmsal sağlamlıq kartlarının hazırlanması, tibb bacılarının davamlı təhsilində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi (İKT), «Tibbi təhsil nərdivanı» metodu ilə bağlı müzakirələr aparılıb, tibb bacısı işi üzrə təlim proqramının demo versiyası nümayiş olunub. Sonda tərəflər arasında gələcək əməkdaşlıq istiqamətində anlaşma memorandumunun imzalanması perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

ATU-dan bildirildiyinə görə, Tibb Universitetində keçirilən, ana və uşaq sağlamlığına, tibb bacılarının davamlı peşə təhsili sahəsində İKT-nin tətbiqi imkanlarına həsr olunmuş tədbirdə «Digital Knowledge» şirkətinin nümayəndəsi Yoşihiro Goyda innovativ elektron platformaların tətbiqi, ana və uşaqlar üçün rəqəmsal sağlamlıq kartlarının hazırlanması və kağızsız tibbi idarəetmə sisteminə keçid məsələlərinə toxunub.

«Vexon International» şirkətinin mütəxəssisi Kneji İçimura tibb bacılarının inkişafı və sertifikasiyası ilə bağlı çıxış edib, davamlı peşəkar inkişaf üçün tibbi personalın gündəlik təhsilinin vacibliyini vurğulayıb.

Tədbir həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə tibb bacılarının peşəkar inkişafı və səhiyyə sisteminin gücləndirilməsi istiqamətində fikir mübadiləsi ilə yekunlaşıb.

Qeyd edək ki, səfər çərçivəsində keçirilən görüşlər rəqəmsal səhiyyə və tibbi təhsil sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi, qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi baxımından mühüm əhəmiyyət daşıyır.

## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏSİ GÖSTƏRİLƏN VAKANT YERƏ MÜSABİQƏ ELAN EDİR

### Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu

*Psixiatriya və narkologiya kafedrası*

Kafedra müdiri - 1.0

*Nefrologiya kafedrası*

Kafedra müdiri - 1.0
Assistent - 1.0

*Otorinolarinqologiya kafedrası*

Kafedra müdiri - 1.0

*Stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrası*

Dosent - 0.25

*Mamalıq və ginekologiya kafedrası*

Dosent - 0.25
Assistent - 1.0 (2 yer)

*Ümumi və plastik cərrahiyyə kafedrası*

Assistent - 0.5

*Urologiya kafedrası*

Assistent - 0.5

*Kardiologiya kafedrası*

Assistent - 0.5 (2 yer)

*Şüaterapiyası kursu ilə şüa diaqnostikası kafedrası*

Assistent - 0.5

*Kliniki laborator təbabəti kafedrası*

Assistent - 1.0 (2 yer)

*Ünvan:Tbilisi pr,3165-ci məh*
*Telefon: 431 - 01 - 82*

### Milli Onkologiya Mərkəzi

*Şüa terapiyasıbölməsi:*

Rəhbər - 1.0
(«Süa diaqnostikası və terapiyası» ixtisasında t.ü.f.d.)

*Abdominal onkologiya bölməsi:*

Aparıcı elmi işçi - 1.0
(«Onkologiya» ixtisasında t.ü.f.d.)

*Şüa diaqnostikası bölməsi:*

Elmi işçi - 2.0

*Kimyaterapiya bölməsi:*

Elmi işçi - 1.0

*Patositomorfologiya laboratoriyası:*

Kiçik elmi işçi - 1.0

*Ünvan: H.Zərdabi küç,. 79b*
*Telefon: 537-08-11*

# Ötən ay 48 aptekdə yoxlama aparılıb

**Bu ilin yanvar ayı ərzində Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi tərəfindən ümumilikdə 48 aptekdə yoxlama keçirilib.**




Mərkəzdən verilən məlumata görə, həmin yoxlamalardan 10-u Bakıda, 38-i isə ölkənin digər şəhər və rayonlarındakı apteklərdə aparılıb.

Yoxlamaların 32-si planlı, 16-sı plandankənar olub.

Aparılmış yoxlamalar nəticəsində 7 aptekdə müxtəlif nöqsanlar aşkarlanıb və həmin pozuntularla bağlı İnzibati Xətalar Məcəlləsinin 452.1, 452.2 və 452.3-cü maddələri üzrə müvafiq inzibati protokollar tərtib edilib.

## Başsağlığı

«Tibb qəzeti"«nin kollektivi Səfayə Əhmədovaya qardaşı **TOFİQ ƏHMƏDOVUN** vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

«Tibb qəzeti»nin kollektivi Azərbaycan Tibb Universitetinin I Uşaq xəstəlikləri kafedrasının dosenti, tibb elmləri namizədi Hüseynova Sabirə Əbdül qızına bacısı - Milli Onkologiya Mərkəzinin elmi katibi **HÜSEYNOVA RUFA ƏBDÜL QIZININ** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**


Baş redaktor:
N.MƏCİDOVA

Baş redaktorun müavini:
S.NƏBİYEVA

Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.

Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92

Ünvan:
Həsən bəy Zərdabi küç., 96.
3-cü mərtəbə, 6-cı otaq
Tel./faks: (012) 596-06-61
E-mail: tibbqazeti@mail.ru
www.tibbqazeti.az

*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*